# Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsi ehtiramla anıldı





***Şəhid adı müqəddəsdir. Şəhidləri daim yad etmək, onların qəhrəmanlığını gələcək nəsillərə çatdırmaq isə hamımızın vətəndaşlıq borcudur. Bu günlərdə Sumqayıtdakı 11 saylı tam orta məktəbin müəllim və şagird kollektivinin Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun təhsil aldığı Biləsuvar rayonunun Əliabad kəndindəki şəhid Malik Piriyev adına tam orta məktəbin nümayəndələrini öz təhsil ocaqlarına dəvət edərək, “Vətən mənə oğul desə – Mübariz” adlı tədbir keçirməsi də məhz bu məqsədə xidmət edirdi.***

Tədbirə Əliabad orta məktəbinin 15 nəfərdən ibarət müəllim heyəti qatılmışdı. Qonaqlar arasında Mübariz İbrahimovun anası Şamama xanım, dayısı Yaqub müəllim, məktəbin direktoru Bəsirə xanım, Mübarizin sinif rəhbəri olmuş Əhliman Quliyev, kəndin icra nümayəndəsi Telman Əliyev də var idi. Qonaqları Şəhidlər xiyabanında Sumqayıt Şəhər Müharibə, Əmək və Silahlı Qüvvələr, Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri, Əməkdar müəllim Leyla Qasımzadə, həmin təşkilatın sədrinin müavini Tamara Ruhullayeva, Böyük Vətən müharibəsi veteranı, məktəbin müəllimi Tərlan Ruhullayev, 11 saylı orta məktəbin direktoru Şəhla Bağırova, Qarabağ müharibəsi iştirakçıları Şakir Rəhman (məktəbin fotoqrafı), operator Vahid Hüseynov, DTV-nin operatoru Elbrus İsmayılov, məktəbin hərbi rəhbəri, mayor Vaqif İbrahimov, jurnalist Gülü Əliquliyeva, ədəbiyyat müəllimləri Elmira Allahverdiyeva və Elnarə Qurbanzadə, riyaziyyat müəllimi Zibeydə Qürbətova və başqaları qarşıladılar.

Hər iki məktəbin kollektivi ikinci Fəxri xiyabana gedərək burada uyuyan qəhrəman vətən oğullarının məzarları üzərinə tər çiçəklər qoydu. Şəhidlərin məzarı önündə çıxış edən valideynlər qürurla övladlarının Vətən uğrunda həlak olduğunu qeyd etdilər, şəhid ailələrinə göstərdiyi diqqət və qayğıya görə dövlət başçısı İlham Əliyevə minnətdarlıqlarını bildirdilər.

Mübariz İbrahimovun anası Şamama xanım oğlunun məzarı başında bu sözləri söylədi: “Fəxr edirəm ki, oğlum Mübariz Vətənə layiq oğul oldu. Qürur duyuram ki, Mübariz faşist ermənilərdən qisasımızı aldı”.

Sonra görüş 11 saylı orta məktəbdə davam etdirildi. Qonaqlar məktəbdə Mübariz İbrahimovun xatirəsinə həsr edilmiş stendlə, gənclərin çağırışaqədərki hazırlığı kabineti, eləcə də dərslərin gedişi ilə tanış oldular. Sonra dövlət bayrağının dalğalandığı iclas zalında “Vətən mənə oğul desə – Mübariz” adlı ədəbi-bədii tədbir başlandı. Vətən uğrunda canlarını fəda etmiş oğulların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, yuxarı sinif şagirdlərinin ifasında dövlət himni səsləndirildi, Mübariz İbrahimovun həyat və döyüş yolundan bəhs edən videosüjet nümayiş etdirildi.

11 saylı məktəbin direktoru Şəhla Bağırova Mübariz İbrahimovun göstərdiyi rəşadət haqqında danışaraq bildirdi ki, Azərbaycan artıq 25 ildən çoxdur ki, mənfur, hiyləgər bir düşmənlə üz-üzədir. Ermənilər torpaqlarımızın 20 faizini işğal edib, xalqımıza qarşı soyqırımı həyata keçiriblər. Amma Azərbaycanın Mübariz kimi mərd, qəhrəman oğulları var və inanırıq ki, onların hünəri ilə torpaqlarımız tezliklə düşmən tapdağından azad olunacaq. Dördgünlük aprel döyüşləri də sübut etdi ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək.

Məktəbin şagirdləri Ramiz Əmrahov və Simuzər Məmmədova çıxış edərək gənclərin ümummilli lider Heydər Əliyevin milli vətənpərvərlik haqqında ideyalarına sadiq olduğunu vurğuladılar. Şagirdlərdən Rauf Qasımov, Kənan İmanzadə, Rövşən Sərdarlı, Tamerlan Camalov, Hüseynağa Süleymanov Mübarizə həsr olunmuş səhnəcik nümayiş etdirdilər. Nigar Fətəliyeva, Roza İsmayılova, Aysel İsmayılova, Amaliya Əlizadə, Günel Rüstəmli, Nərmin Zöhrabova, Nəzrin Ağaməmmədzadə, Simuzər Məmmədova Mübariz haqqında şeir və mahnılar səsləndirdilər.

Əliabad kəndindən gələn qonaqlar da çıxış edərək, Mübariz İbrahimovun hünərinin hər bir azərbaycanlı gəncə örnək olduğunu, təhsil ocaqlarında belə tədbirlərin keçirilməsini təqdirəlayiq hesab etdiklərini bildirdilər.

Bir məsələni qeyd etmək istəyirəm ki, Mübarizin döyüş tarixçəsindən bəhs edən videosüjet gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində böyük əhəmiyyətə malikdir. Biz həmin lenti Sumqayıtdakı bütün məktəblərin yuxarı sinif şagirdləri üçün nümayiş etdiririk. İstərdik ki, həmin film ölkəmizin bütün məktəblərində yayılsın. Bir də arzu edərdik ki, Mübarizin xatirəsinə muzey yaradılsın və doğulduğu Biləsuvar rayonunda heykəli ucaldılsın. Bu da gənclərin vətənpərvərlik tərbiyəsi işinə mühüm töhfə olardı.

***Məşdi ZEYNALOV,***
***Sumqayıt Şəhər Təhsil Şöbəsi Veteranları Şurasının sədri***